BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2013*

# ƏDƏBİYYATŞÜNASLIQ

**UOT 82.03**

## SEYİD ƏZİM ŞİRVANİ VƏ MİLLİ ÖZÜNÜDƏRK

**M.O.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***M.Hasanova@mail.ru***

*"S.Ə.Şirvani və milli özünüdərk" adlı məqalədə S.Ə.Şirvani yaradıcılığının Azərbaycan ədəbiyyatında tutduğu mövqe açıqlanır. Eyni zamanda onun Azərbaycan xalqının maariflənməsində göstərdiyi xidmət yeni baxış bucağından dəyərləndirilir. S.Ə.Şirvani yaradıcılığı və Azərbaycan maarifçiliyi kimi məsələlərə aydınlıq gətirilir.*

*S.Ə.Şirvani M.F.Axundov ədəbi məktəbinin poeziya davamçısı kimi qiymətləndirilir.*

**Açar sözlər:** tədris, dünyəvi təhsil, mətləb, özünüdərk, xitabət, istiqamət, mənəviyyat

XIX əsrin ədəbiyyatında özünəməxsus yeri və mövqeyi olan Seyid Əzim Şirvani lirikada Füzuli ədəbi məktəbinin ən qüdrətli nümayəndəsidir. Aşiqanə qəzəllərində özünün lirik qəhrəmanı olan həqiqi aşiqin qaynar hisslərini, sevinc və kədərini məharətlə təsvir edən şair maarifçi şeirləri, təmsil, mənzum hekayə və satiraları ilə M.F.Axundov ədəbi məktəbinin poeziya davamçısı kimi çıxış edərək maarifçi realist sənətkar kimi tanınır.

Onun yaradıcılığı elə bir dövrə təsadüf edir ki, həmin vaxt Azərbaycanda anadilli məktəblər yox dərəcəsində idi. Ərəb-farsdilli dini təhsildən dünyəvi təhsilə keçid məqamı yetişmişdi. Anadilli məktəb uğrunda mübarizənin önündə gedən ziyalılardan M.F.Axundov, H.Zərdabi, M.Şahtaxtinski, M.T.Sidqi kimilərinə bu müqəddəs işdə köməklik göstərənlərdən biri də S.Ə.Şirvani idi. O, poeziyamızın tarixinə Füzulunin davamı, Sabirin əvvəli olan bir şair kimi daxil olur (Y.Qarayev). daha doğrusu tarixi keçiddə dayananların fikir və mənəviyyatını şeirə gətirir. Yeni bir məzmunla şərtlənən bu mənəviyyatı S.Əzim dövrünün və ayrılıqda şəxsi fəaliyyətinin əsas məzmunu kimi belə elan edir:

Özgə növ ilə dövr edir aləm
Gərək tazə üsul ilə açılsın cümlə məktəblər.

Onun yaradıcılığının böyük bir qismi pedaqoji fəaliyyəti ilə sıx bağlıdır.

Pedaqoji fəaliyyətə 1869-cu ildə Şamaxıda özünün açmış olduğu məhəllə məktəbində başlayan Şirvani Şamaxıda daha iki məktəbdə də müəllimlik etmişdir. 1874-cü ildə Hacı Səid Ünsizadənin təşəbbüsü ilə «Məclis» adlı müasir tipli məktəb yaradılarkən Cəlal Ünsizadə ilə birlikdə S.Ə.Şirvani də müəllim işləməyə başlayır. İl yarımdan sonra qardaşlar Tiflisə köçür, məktəb və onun 70 nəfər şagirdi Şirvaninin öhdəsində qalır. Bu məktəb üç sinifli şəhər məktəbinə girmək üçün hazırlıq sinfi idi. Buranı maddi cəhətdən təmin edən Ruhani idarəsinin etinasızlığı bu yeganə milli dünyəvi məktəbi yaşatmaq üçün S.Əzimi gərgin mübarizəyə sövq edirdi. O, bununla bağlı yeri gəldikcə «Əkinci» qəzetində öz narazılığını ciddi şəkildə bildirirdi. Bu məktəbi yaşatmaq üçün göstərdiyi bütün ciddi cəhdlərə baxmayaraq 1987-ci ildən fəaliyyətini dayandırır. Bu məsələ ilə bağlı «Kaspi» qəzeti yazırdı: «Müəllim Hacı S.Əzim müsəlman məclisini mərhəmətə gətirməyə nə qədər çalışsa da, heç nə çıxmadı. Məsələ məktəbin bağlanması ilə bitdi». Özünün quruluşu, tədris planı və proqramı ilə yeni tipli məktəb olan bu tədris ocağında şəriətdən əlavə dünyəvi fənnlərdən də ibtidai məlumatlar verilirdi. Məktəbin tədris planında ana dili xüsusi yer tuturdu. Məhz bu xüsusiyyətinə görə həmin məktəb Azərbaycan məktəbi tarixində ilk nümunəvi məktəb hesab edilir. M.Ə.Sabirin belə bir məktəbin məzunu olması da S.Ə.Şirvani məktəbinin qələbəsi idi. S.Əzimin Sabirin taleyindəki rolu onun bütünlükdə XIX əsr poeziyasındakı xidmətinin məzmunu üçün də çox simvolikdir. O, Sabirin ehkam və həqiqət etiqad və elm qütblərini şərhsiz ayıra bilməsinə bir ustad və müəllim kimi vaxtında nail olur.

S.Ə.Şirvani 1877-ci ildən Şamaxı üçsinifli şəhər məktəbində də müəllimlik etmişdir. Fars, ərəb, Azərbaycan dilləri və şəriətdən dərs demək hüququ olsa da, o, təlimi daha geniş çevrədə götürür, daha çox mətləbləri anlatmağa cəhd edirdi.

Yenicə fəaliyyətə başlayan anadilli məktəblərdə ana dilində dərsliklər olmadığından Seyid Əzim kiçik yaşlı uşaqlar üçün «Rəbüəl-ətfal» dərsliyini yazmışdır. Bu dərslikdən əlavə onun «Tacsül kütub» dərsliyi də olmuşdur. Əvvəllər bu müstəqil dərslik kimi təqdim olunsa da, sonralar onları «Müntəxəbat» adı altında yenidən işləmişdir. Lakin sağlığında nəşr etdirə bilməmişdir. O, həmçinin Şamaxı şəhər məktəbi üçün ana dili proqramı da tərtib etmişdir.

S.Ə.Şirvani nəinki pedaqoji fəaliyyəti, eyni zamanda bədii yaradıcılığı ilə də xalqın maariflənməsinə çalışır, dövrün ən mötəbər mətbu orqanlarını xitabət kürsüsü kimi seçirdi («Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə» və s.), məsələn, «Əkinçi» qəzetində

Bu qədər dərd kim, olur hadis,
Ona bielmlik olur bais.
İndi naxoşdu milləti islam,
Ona vacibdir eyləmək əncam

- deyə xalqına xitab edərək millətin nicat yolunu göstərirdi: «gərək tazə üsul ilə açılsın məktəblər».

Xalqa xitabın ilk əlamətlərini özündə ehtiva edən S.Ə.Şirvani yaradıcılığı «Molla Nəsrəddin» jurnalının sələfi kimi çıxış edir («Qafqaz əhlinə xitab», «Qafqaz müsəlmanlarına xitab»). Əlbəttə, zahidə, arifə, zalimə, məzluma, ümumiyyətlə fərdə xitab həmişə olub. Amma millətə xitab bu səviyyədə və şəkildə bu dövrdə formalaşır.

Şairin «Ey Həsən bəy, müəllimi dana», «Ey bizə xeyirxah olan Möhsün», «Cəfər, ey qönçeyi - gülüstanım» misraları ilə başlanan şeirləri maarifçi realist şeirin ilk nümunələri idi. Ədəbiyyatımızda bu istiqamətin yaranması H.Zərdabinin S.Ə.Şirvani ilə yaradıcılıq əlaqələrindən qaynaqlanırdı.

Seyid Əzim öz satirik şeirlərini vərəqlərdə paylamaqla gerçək həyata qarşı ayıq münasibətdə olmağa çağırır, onlara doğru yol göstərərək elm, savad əhli olmağa səsləyirdi. Əsl müəllim, qayğıkeş valideyn və ustad kimi övladını danışıqsız tabeçiliyə səsləmirdi, onlar üçün seçmək imkanını saxlayırdı:

Demirəm mən gedən təriq ilə get,
Əqli tut, ol gözəl rəfiq ilə get.
…Deməirəm rus, ya müsəlman ol,
Hər nə olsan, əhli-ürfan ol.

Təlim-tərbiyə işində müəllim nə onun fəaliyyətinə xüsusi önəm verən Şirvaniyə görə zaman məktəbin qarşısına yeni tələblər qoyduğu üçün yeni fikirli, yeni ideyalı müəllimlərə ehtiyac duyulurdu.

S.Ə.Şirvaninin epostolyar irsinə daxil olan 80-dən çox məktubda şair öz əsrinin mühüm saydığı hadisələrinə münasibət bildirməklə yanaşı milli maarifin inkişafı məsələlərinə də toxunurdu. Bu məktublarda şairin dünyagörüşünün inkişaf istiqamətləri, əsrin ideyalarına münasibətdə onun tutduğu mövqe ehtiva olunur. Bu məktublar S.Əzimi fədakar və millətsevər bir maarif xadimi kimi səciyyələndirməyə imkan verir. Bu məktublardan birində Şirvaninin müasir məktəblər üçün dərslik yaratmaq təşəbbüsü açıqlanır. Şairin yazdığına görə bu heç də sadə kitab olmayıb, «Əkinçi»nin təbliğ etdiyi ideyaların təsiri altında yaranır. Onun qarşısına qoyduğu əsas məqsəd «Əkinçi» ideyalarını poetik dildə təbliğ etmək, elmə, maarifə rəğbət yaratmaq idi.

Zərdabiyə göndərdiyi şeirlər «Əkinçi»nin ideyalarından doğan maarifçi realist poeziyanın ilk nümunələri idi. Onların xalqa təsirini təmin etmək üçün şair nasirdən onları səliqə ilə dərc etməyi xahiş edirdi.

Avtobioqrafik səciyyə daşıyan digər bir məktubda şair məktəb və dərslik məsələlərinə toxunur.

Həsən bəyə ünvanladığı məktubların digər qismi sosial-mədəni problemlərə həsr olunmuşdur ki, bu da şairin ictimai-mədəni mövqeyini yeni baxış bucağından dəyərləndirməyə imkan verir. Mövcud ictimai-əxlaqi bəlalara dözə bilməyən şair müxtəlif mülahizələrlə nicat yollarını göstərir:

Ki bu məktub kim xəyalımdır
Əhli – Qafqazə ərzi – halımdır.

Edəsən çap, ey gözüm nuri,
Ta ola ruzigar məşhuri.

Məktubda millətin oyanışı, müasir tərəqqi yolları haqqında düşüncələri öz poetik ifadəsini tapmışdır.

«Bir uqare ilə şagirdlərin əhvalatı» - satirik maarifçi şeirində, «Şagirdlərin müəllimə kələk gəlmələri» adlı maraqlı bir mənzumədə köhnə təlim üsulunu, natamam müəllim tipini tənqid etmişdir.

S.Ə.Şirvaninin əxlaqi-tərbiyəvi mahiyyət daşıyan təmsilləri və öyüdləri arasında sıx əlaqə vardır. Hər iki janrda olan əsərləri onun pedaqoji fəaliyyəti ilə bağlıdır. Uşaq psixologiyasına bələdçilik onu belə bir nəticəyə gətirmişdir ki, uşaqlar quru nəsihətçiliyi qəbul etməz. «Aslan və iki öküz», «Dəvə və eşşəyin yol getməsi», «Siçan və pişik», «Eşşək və arılar», «Misal» kimi bir sıra təmsilləri uşaqlarda əxlaqi-tərbiyəvi keyfiyyətlərin formalaşmasına xidmət edir.

Mənzum hekayələrin də böyük bir qismi uşaqların təlim tərbiyəsinə həsr olunmuşdur. «Padşah və ədib», «Qoca ana və oğul» kimi hekayələrdə gənclərin tərbiyəsində mühitin, ailənin rolu göstərilir.

«Böyük loğmanın hadisəsi» mənzum hekayəsində S.Əzimə görə ömrü mənalı keçirmək lazımdır. Loğmandan soruşulduqda ki, neçə yaşın var? Loğman dörd yaşı olduğunu deyərək izah edir ki, 4 ildir ki, özümü və həqiqi olan xalqımı tanıdım, qalan əyyam ki, cəhalətdə keçibdir, ömür hesab olunmaz.

«Sahibi-mənsəb» hekayəsində isə insan mənsəbcə yüksəldikcə insanlığını itirməməlidir ideyası rəhbər tutulur. Belə ki, mənsəb sahibi olan bir kəs dostunu tanımır və nə üçün gəldiyini soruşur. O isə deyir ki, baş sağlığına gəlmişəm, eşitmişəm ki, mənsəbə sahib olandan sonra kor olmusan.

S.Əzim bütün əsərlərində hər dövr üçün aktual olan problemlər qaldırır ki, bu da onu gənclərin təlim – tərbiyəsində ümumilikdə götürdükdə bütün millətinin maariflənməsində böyük rol oynayan təəssübkeş bir şair kimi tanıtmışdır.

Nadanlar və nadanlıq anlayışı ilk dəfə məhz Şirvani satirasının aynasında durulur, ictimai proses kimi öz əlamətləri ilə görünməyə başlayır.

Seyid Əzimin satiralarında hakim və avam, müctəhid və kütlə, ağa və rəiyyət çox vaxt bir yerdədir və hər ikisi də müəyyən tənqidi münasibət hədəfidir. «Xan və dehqan» şeirindən sonra bu ənənə geniş yayılır və yeni bir mərhələdə «Xan və Novruzəli», «Bəy və əkinçi», «Sahibkar və fəhlə» silsiləsi poeziyada, nəsrdə, dramaturgiyada geniş vüsət tapır.

Bir məqama da diqqət yetirmək lazımdır ki, tamah və rüşvət Şirvani satirasının daim diqqət mərkəzində olaraq yeni novatorluq keyfiyyəti qazanıb. Füzuli «Şikayətnamə»sindən sonra «Allaha rüşvət» mənzuməsi buna parlaq nümunədir.

S.Əzim əməli fəaliyyətdə və yaradıcılıqda Rusiya ilə birləşmədən sonra yetişən ilk milli ziyalı nəslin nümayəndəsidir və yenicə formalaşan maarifçiliyin beşiyi başında duranlardandır. Onu doğma xalqla milli mənşə və mühitlə bağlayan tellər xüsusilə güclü və zəngindir.

## ƏDƏBİYYAT

1. Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX-XX yüzillikdə. Bakı: Maarif, 2002, 737 s.
2. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm, 1989, 220 s.
3. Mirbağırov K. Seyid Əzim Şirvani. Bakı: Elm, 1959, 234 s.
4. Seyid Əzim Şirvani. Seçilmiş əsərləri, 3 cilddə. Bakı: Maarif, 2005, 445 s.

## СЕИД АЗИМ ШИРВАНИ И НАЦИОНАЛЬНОЕ САМОСОЗНАНИЕ

**М.О.ГАСАНОВА**

**РЕЗЮМЕ**

В статье под названием «Сеид Азим Ширвани и национальное самосознание» раскрывается творчество С.А.Ширвани и его позиция в азербайджанской литературе. В тоже время, с новой точки зрения оцениваются его заслуги в просвещении азербайджанского народа. Творчество С.А.Ширвани проясняет такие вопросы как азербайджанское просвещение. С.А.Ширвани оценивается как последователь поэзии литературной школы М.Ф.Ахундова.

**Ключевые слова**: преподавать, мировое обучение, литературная школа, самосознание, обращение, направление, нравственность

## S.A.SHIRVANI AND NATIONAL SELF-CONSCIOUSNESS

**M.O.HASANOVA**

**SUMMARY**

The article studies S.A.Shirvani's creativity and his position in the Azerbaijani literature. His services in the enlightenment of the Azerbaijani nation are estimated from a different view. S.A.Shirvani is appraised as a successor of M.F.Akhundov's literary school of poetry.

**Key words**: teaching, secular education, essence, consciousness, salutation, direction, morality